AZƏRBAYCAN www.azerbaijan-news.az

# Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1. 43.1-ci maddədə "409," rəqəmlərindən sonra "410.3," rəqəmləri əlavə edilsin.

2. 54.2-ci maddədə "399," rəqəmlərindən sonra "410.3," rəqəmləri əlavə edilsin.

3. 410.1-ci maddədə "bu əməllər" sözlərindən sonra "iki" sözü əlavə edilsin, "üç yüz manatdan beş" sözləri isə "dörd yüz manatdan səkkiz" sözləri ilə əvəz edilsin.

4. 410.2-ci maddədə "min manatdan yuxarı" sözləri "iki min manatdan dörd min manatadək" sözləri ilə, "beş yüz manatdan yeddi" sözləri isə "min manatdan min beş" sözləri ilə əvəz edilsin.

5. Aşağıdakı məzmunda 410.3-cü maddə əlavə edilsin:

"410.3. Eyni əməllər dörd min manatdan yuxarı məbləğdə törədildikdə - dövlət büdcəsindən maliyyələşdirilən təşkilatların vəzifəli şəxsləri dörd min manatdan səkkiz min manatadək məbləğdə cərimə edilir.".

6. 410-cu maddəyə aşağıdakı məzmunda "Qeyd" hissəsi əlavə edilsin:

**"Qeyd:** Bu məcəllənin 410-cu maddəsi həmin maddədə göstərilən əməllər Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin müvafiq maddələrinə əsasən cinayət məsuliyyətinə səbəb olmadıqda tətbiq edilir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 aprel 2016-cı il*